# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## Auditorların işlərinin nəticələrinin təsərrüfat subyektlərinin uğurlarının davamlılığına təsirlərinin müəyyənləşdirilməsi üzrə tövsiyələr


**Tərtib etdi:**
**Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri - N.Talıbov,**
**Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi- V.Cavadov**



BAKI - 2021

## Auditorların işlərinin nəticələrinin təsərrüfat subyektlərinin uğurlarının davamlılığına təsirlərinin müəyyənləşdirilməsi üzrə tövsiyələr

Bu tövsiyələr Palata Şurasının 17 mart 2020-ci il tarixli 318/2 nömrəli qərarının 8-ci bəndinə müvafiq olaraq hazırlanmışdır. Tövsiyələrin hazırlanmasında məqsəd auditorların işlərinin sifarişçilər tərəfindən dəyərləndirilməsi səviyyəsini müəyyən etməklə auditorların peşəkarlığı barəsində düzgün təsəvvür formalaşdırmaq, auditorlar tərəfindən görülmüş işlərindəyərliliyinin ölçülməsi üçün parametrlər müəyyən etməklə auditdən müştəri məmnuniyyəti barəsində məlumat əldə etmək, auditorların fəaliyyətinin nəticəliliyə yönəldilməsi üzrə tədbirlər görmək və beləliklə, göstərilən auditor xidmətinin səviyyəsini yüksətməklə auditin ictimaiyyətə verdiyi töhvəsini artırmaqdan ibarətdir.

### Tövsiyələr

Bu tövsiyələr Auditorlar Palatasının Şurası, Palatanın struktur bölmələri, Palata Şurası yanında müvafiq Komitələr tərəfindən auditorların fəaliyyəti barədə ictimaiyyətin bilgi səviyyəsini öyrənmək məqsədi daşıyır ki, bu da öz növbəsində auditə ictimai etimadın yüksəldilməsi üçün əsasdır. Bu tövsiyələr aşağıdakı göstəricilərin əldə edilməsi və təhlili yolu ilə aşağıdakı mənbələrdən əldə oluna bilər:

- Sərbəst auditorların və auditor təşkilatlarının Palataya təqdim etdikləri hesabatlardakı məlumatlar;
- Auditorların şəxsi kabinetlərinin məlumatları;
- Auditorlar Palatası Şurası yanında müvafiq Komitələrin məlumatları;
- Auditorlar Palatasının müvafiq struktur bölmələrinin məlumatları;
- Aparılmış auditlərin keyfiyyətinə nəzarət tədbirlərinin materialları;
- Sifarişçi təsərrüfat subyektlərinin müraciətləri;
- Səlahiyyətli dövlət orqanlarının müraciətləri;
- QHT-lər və Vətəndaş cəmiyyətləri instututlarının müraciətləri;
- KİV və sosial şəbəkələrin məlumatları;
- Auditor xidmətinin istifadəçiləri və digər şəxslər tərəfindən daxil olmuş məlumat və müraciətlər.
- Sosial sorğuların məlumatları.

Qeyd olunan mənbələrdən əldə olunan məlumatlar əsasında auditorların işlərinin nəticələrinin təsərrüfat subyektlərinin uğurlarının davamlılığına təsirini aşağıdakı göstəricilər müəyyənləşdirə bilər:

1. Sifarişçi tərəfindən növbəti il eyni auditorun seçilməsi;

2. Növbəti il sifarişçinin auditora əvvəlki ildən yüksək xidmət haqqı müəyyən etməsi;

3. Sifarişçi tərəfindən auditora verilən tapşırıqların çeşidinin genişləndirilməsi (maliyə hesabatlarının auditi, əlaqəli xidmətlər və s.);

4.Fiskal orqanlar tərəfindən sifarişçiyə auditin əhatə etdiyi dövr üzrə intizam tədbirlərinin tətbiq edilməməsi;

5. Növbəti audit zamanı əvvəlki auditdə aşkar edilmiş nöqsanların təkrar olunmaması (sifarişçinin məlumatları əsasında);

6. Auditorun orta müqavilə məbləğinin öz kateqoriyası üzrə (Yerli və ya xarici ticarət nişanından istifadə edən auditor təşkilatı, sərbəst auditor) orta müqavilə məbləğinə nisbəti;

7. Auditorun maliyyə göstəricilərinin əvvəlki ilə (illərə) nisbətən dinamikası;

8. Auditorun xidmətlərinin sifarişçinin uğurlarını müsbət təsirini göstərən digər əlamətlər

## Qiymətləndirmə metodu

Auditorların işlərini, təsərrüfat subyektlərin uğurların davamlığını təsirini qiymətləndirmək üçün:

- Əvvəlki bölmədə qeyd olunan göstəricinin hər biri üzrə konkret faiz müəyyən edilir.
- Qeyd olunan göstəricilər artırıla və ya azaldıla bilər;
- Bu faiz təhlil edən şəxsin (əməkdaşın, mütəxəssisin) mülahizələri əsasında formalaşdırıla bilər.
- Qeyd olunan göstəricilər hamısı mövcuddursa onda auditorun uğurları 100 faiz qiymətləndirilir,
- Əgər hər hansı bir göstərici üzrə müsbət nəticə yoxdursa uğurlar müvafiq qaydada sıfır faiz qiymətləndirilir.
- Əgər qeyd olunan göstəricilərin hər hansı biri və ya bir neçəsi üzrə əks göstərici mövcuddursa (fiskal orqanlar tərəfindən saksiyaların tətbiqi, müəssisənin dövriyəsinin növbəti ildə azalmadığı halda auditorun xidmətinin, dəyərinin aşağı miqdarda müəyyən edilməsi və s.) onda həmin göstəricilər üzrə mənfi faiz müəyyən edilir və hesablamaya daxil edilir.

Misallar:

1. Tam müsbət uğur:

| SN | Göstəricinin adı | % | Mövcudluğu | Qiymətləndirmə |
|---|---|---|---|---|
| 1. | Sifarişçi tərəfindən növbəti il eyni auditorun seçilməsi; | 15 | + | 15 |
| 2. | Növbəti il sifarişçinin auditora əvvəlki ildən yüksək xidmət haqqı müəyyən etməsi; | 15 | + | 15 |
| 3. | Sifarişçi tərəfindən auditora verilən tapşırıqların çeşidinin genişləndirilməsi (maliyə hesabatlarının auditi, əlaqəli xidmətlər və s.); | 12 | + | 12 |
| 4. | Fiskal orqanlar tərəfindən sifarişçiyə auditin əhatə etdiyi dövr üzrə intizam tədbirlərinin tətbiq edilməməsi; | 8 | + | 8 |
| 5. | Növbəti audit zamanı əvvəlki auditdə aşkar edilmiş nöqsanların təkrar olunmaması (sifarişçinin məlumatları əsasında); | 7 | + | 7 |
| 6. | Auditorun orta müqavilə məbləğinin öz kateqoriyası üzrə (Yerli və ya xarici ticarət nişanından istifadə edən auditor təşkilatı, sərbəst auditor) orta müqavilə məbləğinə nisbəti; | 13 | + | 13 |
| 7. | Auditorun maliyyə göstəricilərinin əvvəlki ilə (illərə) nisbətən dinamikası; | 15 | + | 15 |
| 8. | Auditorun xidmətlərinin sifarişçinin uğurlarını müsbət təsirini göstərən digər əlamətlər | 15 | + | 15 |
| | Yekun | | | 100 |

Yəni:U=1+2+3+4+5+6+7+8

U=15+15+12+8+7+13+15+15=100%

Burada: U-uğur faizi;

1...8 - Göstəricilər:

15.... - Faizlərdir.

**Qeyd:** Bu açıqlamalar növbəti bəndlərə də aiddir.

2. Bir və ya bir neçə göstəricilər üzrə uğurun əldə edilməməsi:

| SN | Göstəricinin adı | % | Mövcudluğu | Qiymətləndirmə |
|---|---|---|---|---|
| 1. | Sifarişçi tərəfindən növbəti il eyni auditorun seçilməsi; | 15 | + | 15 |
| 2. | Növbəti il sifarişçinin auditora əvvəlki ildən yüksək xidmət haqqı müəyyən etməsi; | 15 | + | 15 |
| 3. | Sifarişçi tərəfindən auditora verilən tapşırıqların çeşidinin genişləndirilməsi (maliyə hesabatlarının auditi, əlaqəli xidmətlər və s.); | 12 | - | 0 |
| 4. | Fiskal orqanlar tərəfindən sifarişçiyə auditin əhatə etdiyi dövr üzrə intizam tədbirlərinin tətbiq edilməməsi; | 8 | + | 8 |
| 5. | Növbəti audit zamanı əvvəlki auditdə aşkar edilmiş nöqsanların təkrar olunmaması (sifarişçinin məlumatları əsasında); | 7 | + | 7 |
| 6. | Auditorun orta müqavilə məbləğinin öz kateqoriyası üzrə (Yerli və ya xarici ticarət nişanından istifadə edən auditor təşkilatı, sərbəst auditor) orta müqavilə məbləğinə nisbəti; | 13 | - | 0 |
| 7. | Auditorun maliyyə göstəricilərinin əvvəlki ilə (illərə) nisbətən dinamikası; | 15 | + | 15 |
| 8. | Auditorun xidmətlərinin sifarişçinin uğurlarını müsbət təsirini göstərən digər əlamətlər | 15 | - | 0 |
| | Yekun | | | 60 |

Yəni:U=1+2- 3+4+5-6+7-8

U=15+15-0+8+7- 0+15+0=60%

*Açıqlama: Bu misalda 3, 6 və 8-ci göstəricilər üzrə müsbət nəticələr əldə edilmədiyi üçün həmin göstəricilər üzrə 0% müəyyən edilmişdir.*

3. Mənfi nəticə əldə edildiyi halda:

| SN | Göstəricinin adı | % | Mövcudluğu | Qiymətləndirmə |
|---|---|---|---|---|
| 1. | Sifarişçi tərəfindən növbəti il eyni auditorun seçilməsi; | 15 | + | 15 |
| 2. | Növbəti il sifarişçinin auditora əvvəlki ildən yüksək xidmət haqqı müəyyən etməsi; | 15 | - | -15 |
| 3. | Sifarişçi tərəfindən auditora verilən tapşırıqların çeşidinin genişləndirilməsi (maliyə hesabatlarının auditi, əlaqəli xidmətlər və s.); | 12 | - | 0 |
| 4. | Fiskal orqanlar tərəfindən sifarişçiyə auditin əhatə etdiyi dövr üzrə intizam tədbirlərinin tətbiq edilməməsi; | 8 | + | 8 |
| 5. | Növbəti audit zamanı əvvəlki auditdə aşkar edilmiş nöqsanların təkrar olunmaması (sifarişçinin məlumatları əsasında); | 7 | + | 7 |
| 6. | Auditorun orta müqavilə məbləğinin öz kateqoriyası üzrə (Yerli və ya xarici ticarət nişanından istifadə edən auditor təşkilatı, sərbəst auditor) orta müqavilə məbləğinə nisbəti; | 13 | + | 13 |
| 7. | Auditorun maliyyə göstəricilərinin əvvəlki ilə (illərə) nisbətən dinamikası; | 15 | - | -15 |
| 8. | Auditorun xidmətlərinin sifarişçinin uğurlarını müsbət təsirini göstərən digər əlamətlər | 15 | - | 0 |
| | Yekun | | | 13% |

Yəni:U=1- 2+3+4+5+6+7-8

U=15-15+0+8+7+13-15+0=13%

*Açıqlama: Bu misalda 3 və 8-ci göstəricilər üzrə müsbət nəticələr əldə edilmədiyi üçün həmin göstəricilər üzrə 0%, 2 və 7-ci göstəricilər üzrə mənfi nəticələr əldə edildiyi üçün həmin bəndlər üzrə mənfi göstəricilər qiymətləndirmədə azalma ilə nəzərə alınmışdır.*

**Qiymətləndimənin tətbiq edilmə mexanizmi:**

1. Qiymətləndirmə metodikası tövsiyə xarakteri daşıyır, göstəricilərin adı, sayı, faiz dərəcələri istənilən qaydada dəyişdirilə bilər.
2. Qiymətləndirmə Auditorlar Palatasının məsul əməkdaşı (Palata rəhbərliyinin müvafiq göstərişi olduğu halda) , audit sifarişçisi, audit istifadəçisi, kənar ekspert və s. ola bilər.
3. Qiymətləndirmə müsabiqə formasında- cəm şəkildə və ya fərdi - auditor təşkilatı (sərbəst auditor) üzrə aparıla bilər.
4. Qiymətləndirmədə istifadə olunan göstəricilər açıq mənbələrdən götürülməlidir. həmin məlumatlar açıq mənbələrdə olmadığı halda fəaliyyəti qiymətləndirilən auditor təşkilatı (sərbəst auditor) tərəfindən yalnız könüllü təqdim edilə bilər.
5. Auditorlar Palatasının qeyd olunan məlumatları vermək öhdəliyi yoxdur (qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla).
6. Qiymətləndirmənin nəticəsi audit sifarişçisində, maraqlı tərəflərdə və bütövlükdə cəmiyyətdə auditor təşkilatı (sərbəst auditor) barəsində real fikir formalaşdırmaq məqsədi daşımalı, ondan reklam məqsədilə istifadə olunmamalıdır.

**Nəticə**

Bu tövsiyələr yalnız uğurların qiymətləndirilməsinin ümumi prinsiplərini əhatə edir. Qeyd olunan göstəricilərin həm sayı, həm çeşidi, həm də əhəmiyyətlik dərəcəsi fərqli olaraq müəyyənləşdirilə bilər. Bu şərtlə ki, təhlilin nəticəsi auditorun işinin təsərrüfat subyektinin uğurunu obyektiv olaraq göstərə bilsin.

Təqdim olunan metodika auditorların peşəkarlığı barəsində düzgün təsəvvür formalaşdırmaq, auditorlar tərəfindən görülmüş işlərin dəyərliliyinin ölçülməsi üçün parametrlər müəyyən etməklə auditə dair müştəri məmnuniyyəti barəsində məlumat əldə etmək, auditorların fəaliyyətinin nəticəliliyə yönəldilməsi üzrə tədbirlər görmək və beləliklə, göstərilən auditor xidmətinin səviyyəsini yüksətməklə auditin ictimaiyyətə verdiyi töhvəsini artırmağa imkan verəcəkdir.

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**sədri cənab V.Novruzova**

**Xidməti məktub**

Hörmətli Vahid müəllim!

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2020-ci il 17 mart tarixli 318/2 -li qərarının 8-ci "Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitəyə (N.Talıbov) və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, auditorların işlərinin nəticələrinin təsərrüfat subyektlərinin uğurlarının davamlılığına təsirinin müəyyənləşdirilməsi üzrə metodikanın hazırlanmasını təmin etsinlər." bəndinin icrası ilə əlaqədar hazırlanmış tövsiyələri Palatanın Şurasında baxılmaq üçün Sizə təqdim edirik.

Qoşma- 4 vərəq

Nəzərə almanızı xahiş edirik.

Hörmətlə,

Palata sədrinin elmi-metodik məsələlər
üzrə müşaviri N.Talıbov,

Auditin təşkili, hesabatlılıq və informasiya
idarəsinin rəisi V.Cavadov